**SR Audit Solutions LLC**

H.Əliyev pr.115, Baku c.,
*Caspian Sport Hotel &Plaza, Ofis 1307*

Tax ID: 1803439741, License: AT/191

Tel.: +994 50 473 77 02; +994 70 202 24 50
E-mail: seftervelizade@gmail.com
www.sraudit.com

**SR Audit Solutions MMC**

Bakı şəhəri, H.Əliyev pr.115,
*Caspian Sport Hotel &Plaza,*
*13-cü mərtəbə 1307 saylı ofis*

VÖEN: 1803439741, İcazə: AT/191

Tel.: +994 50 473 77 02; +994 70 202 24 50
E-mail: seftervelizade@gmail.com
www.sraudit.com

# MÜSTƏQİL AUDİTORUN HESABATI

## Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyinə:

**Rəy**

Biz, **Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin** (bundan sonra Agentlik) 31 dekabr 2020-ci il tarixinə maliyyə vəziyyətinə dair konsolidə olunmuş hesabatından, məcmu gəlirlərə dair konsolidə olunmuş hesabatından, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına qeydlərdən ibarət maliyyə hesabatlarının auditini apardıq.

**Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Agentliyin 31 dekabr 2020-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.**

**Rəy üçün əsaslar**

Biz, auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Agentlikdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və Agentliyin idarə edilməsinə məsul şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Agentliyi ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik

Agentliyin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunda fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır. İdarəetməyə məsul şəxslər Agentliyin maliyyə hesabatlarının təqdim etmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

**14 iyun 2021-ci il**

**"SR Audit Solutions" MMC-nin Direktoru,**
**Azərbaycan Respublikası Auditorlar Palatasının**
**üzvü, Auditor:** **Vəlizadə Səftər Vəli oğlu**

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyət
SR AUDIT SOLUTIONS
Limited Liability Company
Azerbaijan Republic

**Azərbaycan Respublikasının Auditorlar Palatası**
**tərəfindən 29. 05. 2019-cu il tarixdə verilmiş**
**İCAZƏ№ SA/381**